★★★

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

**PRESS-RELİZ**

**25 iyul 2024**

**Azadlığın məhdudlaşdırılması cəzasını çəkdiyi dövrdə başqa cinayətə görə şəxsin barəsində həyata keçirilən cinayət təqibinin gedişində qətimkan tədbiri qismində seçilmiş həbs həmin cinayət təqibinə bəraətverici əsasla xitam verildiyi halda Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 51-2.2-ci maddəsi ilə ehtiva olunan hal kimi qiymətləndirilə bilməz və bu vəziyyətdə şəxsin həbsdə saxlanılması cinayət prosesini həyata keçirən orqanın səhvi nəticəsində baş vermiş hal kimi çıxış etdiyindən, həbsdə saxlama müddəti azadlığın məhdudlaşdırılması cəzasının çəkilmiş hissəsinə hesablanmalıdır**

***XXX-ə (bundan sonra – Məhkum) təyin olunmuş azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsinin azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilməsi ilə bağlı təqdimata dair hökmün icrası qaydasında material***

**İşin halları:**

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 19 fevral 2024-cü il tarixli qərarı ilə Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 22 dekabr 2022-ci il tarixli hökmünə əsasən Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə həmin Məcəllənin 69.3-cü maddəsinə əsasən qəti olaraq təyin olunmuş 1 il 11 ay 26 gün müddətə azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsinin müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsinə dair icra məmuru tərəfindən verilmiş təqdimat təmin edilməmişdir.

Apellyasiya instansiya məhkəməsinin 22 aprel 2024-cü il tarixli qərarı ilə apellyasiya protesti təmin edilmiş, birinci instansiya məhkəməsinin qərarı ləğv edilmişdir. İcra məmuru tərəfindən verilmiş təqdimat təmin edilərək, Məhkuma CM-in 234.1-ci maddəsi ilə təyin olunmuş 1 il 11 ay 26 gün müddətə azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsi – 1 il 29 gün CM-in 68.1.1-1-ci maddəsinə müvafiq qaydada azadlığın məhdudlaşdırılmasının iki günü azadlıqdan məhrum etmənin bir gününə bərabər tutulmaqla 6 ay 14 gün müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmişdir. Cəzaçəkmə müddətinin 22 aprel 2024-cü ildən hesablanması və Məhkumun cəzaçəkmə müəssisəsinə göndərilməsi üçün məhkəmə iclas zalında həbsə alınması qərara alınmışdır.

Apellyasiya instansiya məhkəməsinin qərarından Məhkumun müdafiəçisi tərəfindən kassasiya şikayəti verilmişdir. Müdafiəçi apellyasiya instansiya məhkəməsinin qərarının ləğv edilməsini, Məhkumun qanunsuz olaraq həbsdə saxlanıldığı 3 ay müddətin çəkilmiş azadlığın məhdudlaşdırılması cəzasının müddətinə hesablanması və buna müvafiq olaraq

təyin olunmuş azadlıqdan məhrum etmə cəzasının müddətinin azaldılması haqqında qərarın qəbul edilməsini xahiş etmişdir.

**Kassasiya instansiya məhkəməsinin mövqeyi:**

Məhkəmə kollegiyası hesab etmişdir ki, apellyasiya instansiyası məhkəməsi azadlığın məhdudlaşdırılması cəzasının çəkilmiş və çəkilməyən hissələrini, müvafiq olaraq da çəkilməyən hissənin əvəz edilməsi qaydasında təyin edilən azadlıqdan məhrum etmə cəzasının müddətinin müəyyən edilməsində hüquqi normanın düzgün tətbiq edilməməsində ifadə olunan və bundan irəli gələn səhvlərə yol vermişdir.

Belə ki, işin mübahisələndirilməyən (həqiqi) halları olaraq müəyyən edilmişdir ki, Məhkum 22 dekabr 2022-ci il tarixdə CM-in 234.1-ci maddəsi ilə qəti olaraq 1 il 11 ay 26 gün müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş və hökm qüvvəyə minib icraya yönəldildikdən sonra 13 fevral 2023-cü il tarixdən etibarən Bakı Şəhər Probasiya İdarəsində qeydiyyata götürülməklə azadlığın məhdudlaşdırılması cəzasının icrasına başlanılmışdır.

Cəzanın çəkildiyi dövrdə Məhkum CM-in 234.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayəti törətməsinə şübhənin olması ilə əlaqədar 9 yanvar 2024-cü il tarixdə şübhəli şəxs qismində tutulmuş, 10 yanvar 2024-cü ildə cinayət işi başlanaraq, CM-in 234.1-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuşdur. Həbs qətimkan tədbirinin seçilməsinə dair müstəntiqin vəsatəti təmin edilərək, Məhkum barəsində əvvəli 9 yanvar 2024-cü il tarixdən hesablanmaqla 3 ay müddətinə, yəni 9 aprel 2024-cü il tarixədək həbs qətimkan tədbiri seçilmişdir. Bununla əlaqədar icra məmuru tərəfindən azadlığın məhdudlaşdırılması cəzasının müddətinin axımı (cəzanın icrası) dayandırılmışdır.

Müstəntiqin 6 aprel 2024-cü il tarixli qərarına əsasən isə müəyyən edilmişdir ki, Məhkumun CM-in 234.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət təqibinə CPM-in 39.2-ci maddəsinə istinad olunmaqla, yəni təqsirliliyinin sübuta yetirilməməsi və cinayətə aidiyyətinin olmaması kimi CPM-in 39.2-ci maddəsinə görə bəraətverici hesab edilən əsaslarla xitam verilmişdir.

Məhkumun 9 aprel 2024-cü il tarixdə başa çatan həbsdə saxlanılma müddəti uzadılmadığından, 9 aprel 2024-cü il tarixli protokola əsasən o, həmin gün həbsdən azad edilərək müalicə müəssisəsindən buraxılmış, lakin materialda müvafiq təsdiqedici sənədin olmamasından və Bakı Şəhər Probasiya İdarəsinin məktubundan Məhkumun həbsə alınması ilə əlaqədar dayandırılmış azadlığın məhdudlaşdırılması cəzasının icrasının apellyasiya instansiyası məhkəməsinin qərarının çıxarıldığı 22 aprel 2024-cü il tarixinədək (azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsinin müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsilə əlaqədar Məhkumun məhkəmə iclas zalında həbsə alınmasınadək) bərpa edilmədiyi (icranın təzələnmədiyi) müəyyən olunmuşdur.

Apellyasiya instansiyası məhkəməsi Məhkumun həbsdə və həbsdən azad edildikdən sonra apellyasiya instansiyası məhkəməsinin qərarının çıxarıldığı tarixədək azadlığın məhdudlaşdırılması cəzasının axımının (icrasının) dayandırılmış olmasından çıxış edərək, 2024-cü ilin 9 yanvar tarixindən 22 aprel tarixinədək davam edən həmin dövrü azadlığın məhdudlaşdırılması cəzasının çəkildiyi müddətə aid etməmiş və çəkilən cəzanı 10 ay 27 gün, çəkilməyən cəza müddətini isə 1 il 29 gün olaraq (1 il 11 ay 26 gün – 10 ay 27 gün = 1 il 29 gün) müəyyən edib, sonuncu müddəti (1 il 29 günü) azadlığın məhdudlaşdırılması cəzasının iki gününü azadlıqdan məhrum etmənin bir gününə bərabər tutmaqla 6 ay 14 gün müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz etmişdir.

Apellyasiya instansiyası məhkəməsinin qərarında Məhkumun həbsdə olduğu müddətin çəkilən azadlığın məhdudlaşdırılması cəzasının müddətinə hesablanmamasına əsas verən norma qismində istinad olunmuş Cəzaların İcrası Məcəlləsinin 51-2.2-ci maddəsinə əsasən, azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası zamanı məhkuma inzibati tənbeh kimi verilmiş, yaxud başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri kimi seçilmiş həbsin müddəti həmin cəzanın icrası müddətinə hesablanmır.

Məhkəmə kollegiyasının fikrincə təsvir edilən norma məhkumun başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri qismində tətbiq edilmiş həbs müddətinin azadlığın məhdudlaşdırılması cəzasının icrası müddətinə (çəkildiyi dövrə) hesablanmamasını nəzərdə tutsa da, bu qaydanın hazırki material üzrə baxılan məsələyə tətbiqi məsələsi mexaniki surətdə, normanın gerçək (qanunvericinin iradəsi ilə şərtləndirilən) hüquqi mənası açıqlanmadan və normanın gerçək mənası ilə hazırki material üzrə müəyyən edilmiş mühüm hal – Məhkumun barəsində azadlığın məhdudlaşdırılması cəzasını çəkdiyi dövrdə başqa cinayətə görə CM-in 234.1-ci maddəsi ilə başlanmış cinayət təqibinə bəraətverici əsasla xitam verilməsinə dair müstəntiqin ləğv edilməmiş qərarının olması nəzərə alınmadan həll edilə bilməzdi.

Cəzaların İcrası Məcəlləsinin 51-2.2-ci maddəsində təsbit edilən normanın qanunvericinin iradəsi ilə şərtləndirilən hüquqi mənası isə belədir ki, “başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri kimi seçilmiş həbsin müddəti həmin cəzanın icrası müddətinə hesablanmır” müddəasında “qətimkan tədbiri kimi həbs” dedikdə qanunsuz hesab edilməyən həbsdə saxlama nəzərdə tutulur, qanunsuz hesab edilmiş (cinayət prosesini həyata keçirən orqanın səhvinin və ya sui-istifadəsinin nəticəsi olmuş) həbsdə saxlama halları isə sözügedən norma ilə ehtiva olunmur.

Həmin norma altında qanuni və ya qanunsuz (cinayət prosesini həyata keçirən orqanın səhvinin və ya sui-istifadəsinin nəticəsi) olmasından asılı olmayaraq qətimkan tədbiri qismində seçildiyi halda istənilən həbsdə olmanın nəzərdə tutulduğunu ehtimal etmək – bu qanunvericinin Azərbaycan Respublikasının Konstitusiyası, qanunvericilikdə təsbit edilmiş prinsiplərlə şərtləndirilən həqiqi iradəsinin ziddinə olan təfsirdir.

Qeyd olunan normalara əsasən, o cümlədən analogiya üzrə CPM-in 59.1.1, 59.1.2-ci maddələri tətbiq edilməklə Məhkumun barəsində azadlığın məhdudlaşdırılması cəzasını çəkdiyi dövrdə başlanmış CM-in 234.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət təqibinə CPM-in 39.2-ci maddəsinə əsasən (bəraətverici əsasla) xitam verilməsinə dair müstəntiqin qərarından irəli gələn məsələlərin həllinə yanaşdıqda, həmin cinayət təqibinin gedişində Məhkumun həbs qətimkan tədbirinin seçilməsinə dair qərarla 9 yanvar 2024-cü il tarixdən 9 aprel 2024-cü il tarixədək həbsdə saxlanılması cinayət prosesini həyata keçirən orqanın səhvinin nəticəsi və pozulmuş hüquqlarının bərpasını şərtləndirən hal kimi qəbul edilməli və 3 ay təşkil edən həbsdə saxlanılma müddəti, eləcə də Məhkumun 9 aprel 2024-cü il tarixdə həbsdən azad edildikdən sonra apellyasiya instansiyası məhkəməsinin 22 aprel 2024-cü il tarixli qərarı ilə əvəzetmə qaydasında müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzanın təyin edilməsilə əlaqədar məhkəmə iclas zalında həbsə alınmasınadək heç bir əsas gətirilmədən (sanki, həbsdə olmanın davamı kimi) Bakı Şəhər Probasiya İdarəsinin və apellyasiya instansiyası məhkəməsinin cəzanın icra edilmədiyi (axımının dayandırıldığı) dövrə aid etdikləri 13 gün, yəni ümumilikdə 3 ay 13 gün təşkil edən həmin müddət də daxil olmaqla azadlığın məhdudlaşdırılması cəzasının icra edilməyə başlandığı 13 fevral 2023-cü il tarixdən apellyasiya instansiyası məhkəməsinin qərarının çıxarıldığı 22 aprel 2024-cü il tarixədək olan bütöv dövr - 1 il 2 ay 9 gün azadlığın məhdudlaşdırılması cəzasının ara verilmədən çəkildiyi müddət kimi qiymətləndirilməlidir.

Məhkəmə kollegiyası Məhkumun 9 yanvar 2024-cü il tarixdən 9 aprel 2024-cü il tarixədək həbsdə saxlanıldığı müddəti CM-in 69.3-cü maddəsinə və ya 52-1.5-ci maddəsinə müvafiq qaydada, yəni həbsdə saxlama müddətinin bir günü azadlığın məhdudlaşdırılması cəzasının müddətinə iki gün hesabı ilə deyil, məhz həbs müddətinə bərabər olan 3 aylıq təqvim müddəti kimi hesablayarkən ondan çıxış etmişdir ki, Məhkumun həbsə alınması hazırki - hökmün icrası qaydasında icraatla əlaqədar və onun məqsədləri üçün deyil, başqa cinayətin törədilməsində təqsirləndirilməsi səbəbindən və müstəsna olaraq həmin (cinayət təqibi üzrə) icraatın məqsədləri üçün həyata keçirilmiş, Məhkumun 3 ay müddətində həbsdə olması da reallıqda ona bərabər olan müddətdə məhkumun iradəsindən asılı olmayan səbəbdən azadlığın məhdudlaşdırılması cəzasının icra edilməsini mümkünsüz etmişdir. Həmçinin, həbsdə olma müddətinin cəzanın icra edilməsi müddətinə hesablanmasına yol verilmədiyini təsbit edən Cəzaların İcrası Məcəlləsinin 51-2.2-ci maddəsində də cəza müddətinə hesablanmalı olmayan müddət dedikdə həbsin müddətinə bərabər olan təqvim müddəti ehtiva olunur (müvafiq olaraq da bu müddəaya baxmayaraq başqa cinayətlə əlaqədar həbsdə olma müddəti hazırki işdə olduğu kimi cəzanın icrası müddətinə hesablandıqda, məsələnin həllinə eyni qaydada yanaşılmalı, cəzanın icrası müddətinə hesablanan müddət həbsin təqvim müddətinə bərabər olmalıdır).

**Yekun məhkəmə aktı:**

Ali Məhkəmənin Cinayət kollegiyasının qərarı ilə Məhkumun müdafiəçisi tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilmiş, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının qərarı dəyişdirilmişdir.

Məhkumun CM-nin 234.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə Xətai Rayon Məhkəməsinin həbs qətimkan tədbirinin seçilməsinə dair 11 yanvar 2024-cü il tarixli qərarına əsasən əvvəli 9 yanvar 2024-cü il tarixdən hesablanmaqla 9 aprel 2024-cü il tarixədək həbsdə saxlanıldığı 3 ay və həbsdən azad edildikdən sonra 9 aprel 2024-cü il tarixdən apellyasiya instansiyası məhkəməsinin qərarının çıxarıldığı 22 aprel 2024-cü il tarixədək olan 13 gün, yəni ümumilikdə 3 ay 13 gün təşkil edən müddətin Məhkumun Qaradağ Rayon Məhkəməsinin 22 dekabr 2022-ci il tarixli hökmü ilə təyin olunmuş 1 il 11 ay 26 gün müddətə azadlığın məhdudlaşdırılması cəzasının çəkilmiş hissəsinə hesablanması və Məhkumun çəkdiyi həmin cəzanın müddəti cəzanın çəkilməyə başlandığı (probasiya şöbəsində qeydiyyata götürüldüyü) 13 fevral 2023-cü ildən 22 aprel 2024-cü il tarixədək hesablanmaqla 1 il 2 ay 9 gün olaraq müəyyən edilməsi qərara alınmışdır.

Məhkuma hökmlə təyin olunmuş 1 il 11 ay 26 gün müddətə azadlığın məhdudlaşdırılması cəzasından onun çəkdiyi cəza - 1 il 2 ay 9 gün çıxılaraq, çəkilməyən cəza müddəti 9 ay 17 gün olaraq müəyyən edilmişdir.

CM-nin 52-1.5-ci maddəsinə əsasən azadlığın məhdudlaşdırılmasının iki günü azadlıqdan məhrum etmənin bir gününə bərabər tutulmaqla azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsi olan 9 ay 17 gün, 4  ay 23 gün müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmiş, qərar qalan hissədə, o cümlədən azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi müddətinin 22 aprel 2024-cü il tarixdən hesablanmasına dair müddəa dəyişdirilmədən saxlanılmışdır.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə tərtib edilmişdir və məhkəmə qərarının tərkib hissəsi olmamaqla, onun qısa mətnini təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş və tərtib edilmiş məhkəmə aktı rəsmi sənəddir və*

*rəsmi olaraq yalnız ona istinad edilə bilər. Məhkəmə aktının tam mətni ilə tanış olmaq üçün aşağıdakı linkə keçid edə bilərsiniz.*

**https://sc.supremecourt.gov.az/storage/Cinayet/2024/7_134+28.06.2024.pdf**

**Qeyd:** ★★★ (üç ulduz) – Azərbaycan Respublikası Ali Məhkəməsinin hüququn tətbiqi üzrə vahidməhkəmə təcrübəsini müəyyən edən və inkişaf etdirən məhkəmə aktına təyin edilən fərqləndirici nişandır.